**Ali təhsil almaq niyyəti olmayıb. Diplom onun üçün kağız parçasından başqa bir şey deyil. Onun fikrincə, proqramlaşdırma ilə məşğul olan adamın ali təhsilə ehtiyacı yoxdur, əsas təcrübi bacarıqlardır. Deyir ki, təcrübəniz və hər hansı bir proqramı hazırlamağınız barədə əlinizdə sübut varsa, ali təhsil önəmli deyil. Amma ali təhsil haqda diplom olmadan arzularının gerçəkləşmədiyini görüb məcburən sənədlərini ali məktəbə verir...**



# İdeyasını pula çevirən adam

## Namət Məmmədzadə: “Gənclərimiz ürəkli olsunlar...”

Müsahibimiz startapçı, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mexanika və informasiya texnologiyaları fakültəsinin informasiya texnologiyaları və sistemləri mühəndisi ixtisasının 3-cü kurs tələbəsi, 24 yaşlı Namət Məmmədzadədir. Namət Qaradağ rayonunun Ələt qəsəbəsində anadan olub. Orta məktəbin 10-cu sinfindən təhsilini Bakı Dövlət Sosial İqtisad Kollecinin kompyuter idarəetmə fakültəsində davam etdirib.

**- Namət, ilk dəfə kompyuterlə tanışlığınız nə vaxta təsadüf edir?**

- İlk dəfə kompyuterlə 10 yaşımda əmimgildə tanış olmuşam. Kompyuteri görəndə onun necə işləməsi, iş strukturu mənə maraqlı gəldi. Maraqlanmağa başladım. Bir var istifadəçi kimi həmin proqramda işləyəsən, bir də var proqramı hazırlayasan. İşləyən proqram məni maraqlandırdığına görə araşdırmağa başladım. Altı ilim sırf araşdırmağa getdi. 16 yaşımdan, peşəkar deməyim, xırda proqramlar yazmağa başladım. Həmin proqramlardan hazırda özüm istifadə edirəm.

**- Orta məktəbin 10-cu sinfindən təhsilinizi kollecdə davam etdirmisiniz. Adətən oxumağa marağı olmayanlar tam orta məktəbi bitirməmiş sənədlərini kollecə verir. Siz nəyə görə təhsilinizi kollecdə davam etdirdiniz?**

- Məktəbdə əlaçı olmuşam. Hazırda da Ələt qəsəbəsində təhsil aldığım 302 saylı orta məktəbdə şərəf lövhəsində şəklim qalır. Amma marağım sırf informasiya texnologiyaları (İT) sahəsinə olduğu üçün belə qərar verdim. Çünki orta məktəbdə verilən təhsil məni İT sahəsindən bir növ kənarlaşdırırdı, vaxtım ana dili, kimya, riyaziyyat oxumağa gedirdi. Buna görə kollecdə kompyuter idarəetmə fakültəsinə, texniki proqramlaşdırma ixtisasına daxil oldum.

**- Deyəsən, cəmiyyətimizdə dəb halı alan ali təhsil sizi o qədər də cəlb etmədiyindən ali təhsil almaq barədə düşünməmisiniz.**

- Elədir. Əslində mənim ali təhsil almaq niyyətim olmayıb, diplom mənim üçün, sadəcə, kağız rolunu oynayıb. İT sahəsi elə bir sahədir ki, ali təhsilə ehtiyac yoxdur, əsas təcrübi bacarıqlardır. Mən proqramçıyam, proqramlaşdırma ilə məşğulam. Təcrübəniz və hər hansı bir proqramı hazırlamağınız barədə əlinizdə sübut varsa, ali təhsil önəmli deyil. Bu baxımdan 3 il bundan əvvələ kimi ali təhsil almaq barədə düşünmürdüm. O vaxta kimi ki, arzuma çatmaq üçün ali təhsil haqda diploma ehtiyac yarandı. Uşaqlıqdan arzum dövlət idarəsində çalışmaq olub. Kolleci bitirdikdən və İT sahəsində müəyyən biliklərə sahib olduqdan sonra işləmək üçün bir çox dövlət orqanına müraciət etdim. Lakin ali təhsilim olmadığı üçün iş tapa bilmədim. Məlum oldu ki, arzuma çatmaq üçün mütləq ali məktəbi bitirməyimlə bağlı diplom almalıyam. Buna görə sənədlərimi məcburən ali məktəbə verdim. Hazırlaşmadığıma görə aşağı balla Azərbaycan Memarlıq və İnşaat Universitetinin mexanika mühəndisi ixtisasına qəbul oldum.



Birinci kursun birinci semestrindən başlayaraq həm tək, həm də komanda şəklində İT sahəsində Azərbaycan və dünyanın müxtəlif ölkələrində keçirilən müsabiqələrə qatıldım, uğurlarımız oldu.

Universitetimizin rektoru Gülçöhrə xanımla müsabiqələrdə iştirakımla bağlı bir neçə dəfə görüşdük. Məndən mexanika üzrə oxusam da, İT ilə maraqlanmağımın səbəbini soruşdu. Balım az olduğuna görə Mexanika fakültəsinə düşdüyümü dedim. Gülçöhrə xanımın köməyilə ikinci kursdan İT mühəndisliyi ixtisası üzrə təhsilimi davam etdirdim.

**- Ali təhsil almağınıza peşman deyilsiniz?**

- Ali təhsil aldığım üçün dərslərdə oturmalıyam. Bu da günümün 4-5 saatını alır. Düzdür, az da olsa, faydalandığım dərslər var. Amma özündən razılıq çıxmasın, mənim biliyim universitetimizdə keçirilən dərslərdən bir az çoxdur. Bu baxımdan istədiyimi ala bilmirəm. Qrupda 19 nəfərik, məndən zəif olanları dərslər təmin edir.

**- Gələcək planlarınız arasında yəqin xaricdə oxumaq da var.**

- Hələ ki, belə bir planım yoxdur. Amma təqaüd proqramıyla YANDEX-ə getmək istərdim. İki illik magistr təhsilidir. Həm təhsil alır, həm də işlə təmin edilirsən.

**- Namət, informasiya texnologiyaları dərsindən kurs işi üçün ”Göy cisimlərinin müxtəlif parametrlərinin və uçuş xarakteristikalarının hesablanması” adı altında ”Solar System” proqramı yazmısınız. Necə oldu ki, kurs işiniz proqramlaşdırma dilinə çevrildi?**

- Kurs işini Excel proqramında yığmalıydıq. Ay yarım bunu çək-çevir etdim, heç cür alınmadı. Kurs işini son təqdimetmə tarixinə iki gün qalmış müəllim icazə verdi ki, işimi proqramlaşdırma dilində hazırlayım. Dostumla oturub 8 saata kurs işimi proqramlaşdırma dilinə köçürdük. Nəticədə həmin proqram ərsəyə gəldi.

**- ”Solar System” proqramından kim və hansı məqsədlə istifadə edə bilər?**

- Planımda, sadəcə, kurs işimi təqdim etmək idi. Amma astronomiya sahəsinin içinə girməyə başlayanda bu sahə ilə maraqlanmağa başladım, dostlar əldə etdim. Planetlərin düzgün hərəkət sistemi, yerdən həmin planetə qədər olan məsafə, həmin planetin günəş ətrafında hərəkəti, düzgün şaquliliyi, meyilliliyi və s. hamısı proqramın iş strukturunda göstərilir. Bir növ bunu gələcəkdə astronomiya fənnində metodik vəsait kimi istifadə etmək olar.

Qeyd edim ki, hələ kollecdə oxuyanda müəllimim Nigar Umarova ilə birlikdə informasiya texnologiyaları üzrə metodik vəsait hazırlamışdıq. Bu, magistratura imtahanlarının birinci mərhələsində istifadə olunan metodik vəsaitdir. Bu vəsaiti oxuyandan sonra imtahana düşən sualları cavablandırmaq rahat olur.

**- RobiGuide startap layihəsinin rəhbərisiniz. Layihəniz barədə məlumat verərdiniz...**

- RobiGuide bələdçi rolunu oynayır. Çox vaxt startapın yaranması istifadəçinin başına gələn hər hansı problemdən qaynaqlanır. Problem olmasa, onu startap kimi yaratmaq bir növ ağla gəlmir. Dil problemim olmasa da, Gürcüstanda, Qazaxıstanda İT yarışlarına qatılarkən bir çox əyləncə yerlərini, restoranları və s. tapmaqda çətinlik çəkirdim. Məcburən kimdənsə soruşmalı oluram. Bu problemi həll etmək üçün sözügedən ideya ağlıma gəldi. Hər hansı istifadəçi Azərbaycanda, yaxud ölkəmizdən kənarda bu proqramın köməyilə həmin ölkənin qidalanma obyektlərini, əyləncə, tarixi abidələriini, parklarını və s. tapmaq üçün kimdənsə soruşmadan rahat gedib tapa bilər.

Məsələn, hər hansı turist ”Sahil” metrosundan çıxıb ətrafda olan tarixi abidələri axtarır. Proqramı axtarışa qoyanda, məsələn, 100 metrlikdə olan tarixi abidələri görür. Filtrasiyadan sonra telefonun kamerası açılır, kamera 360 dərəcə bucaq altında ətrafı skayn edir və tarixi yerləri istifadəçiyə təqdim edir. İstifadəçi, məsələn, Qız qalasını seçib proqramı ona kökləyəndə durduğu A nöqtəsindən Qız qalasına qədər olan B nöqtəsinə qədər marşrut xətti çəkilir və onu rahat şəkildə istədiyi yerə aparıb çatdırır. Qız qalasının yanına çatanda ekrana məlumat gəlir ki, çatdığınız obyekti skayn edin. Qız qalası skayn olunandan sonra proqramdakı personaj ekrana çıxıb istifadəçinin əvvəlcədən seçdiyi dil üzrə qala haqda informasiya verməyə başlayır.



Eşitmə problemi olanlara isə məlumat yazılı şəkildə çatdırılır.

**- Proqram satışa çıxarılıb?**

- Xeyr. Hazırda proqramın təkmilləşdirilməsi üzərində çalışırıq. Yaxın zamanlarda bazara çıxarılması planlaşdırılır. Hazırda İKT Fondunun elan etdiyi qrant layihəsinə müraciət etmişəm. Qrant alandan sonra proqramı tam şəkildə bazara çıxarmaq mümkün olacaq. Türkiyə, Qazaxıstan və Gürcüstanla da danışıqlar aparmışam. Proqramı Azərbaycanla yanaşı, Qazaxıstan, Gürcüstan və Türkiyədə də istifadə etmək mümkün olacaq. Xidmətin 1 dollar civarında olacağını planlaşdırıram.

**- Namət, ətrafınızda startap ideyaları olan gənclər çoxdur?**

- Gənclər var, amma çoxu cəmiyyət içinə çıxmaq istəmir. Belələrinin sosial fobiyaları var. Məsləhət görərdim ki, ürəkli olsunlar və ideyalarını pula çevirsinlər. Həm başqaları, həm də özləri gözəl ideyalarından qazansınlar.

**Lalə MUSAQIZI**